# Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə"ni "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1340-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, N 4, maddə 258, N 12, maddə 1058; 2009, N 2, maddə 75, N 7, maddə 532, N 8, maddə 618, N 10, maddə 776; 2010, N 2, maddə 88, N 7, maddə 610, N 8, maddə 717, N 9, maddə 770; 2011, N 4, maddə 282, N 10, maddə 891; 2012, N 8, maddə 787; 2013, N 9, maddə 1046, N 11, maddələr 1321, 1339; 2014, N 2, maddə 122, N 9, maddələr 1027, 1062; 2015, N 2, maddə 121, N 5, maddələr 521, 543, N 9, maddə 989; Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 764 nömrəli və 17 mart tarixli 849 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 8.9-cu bəndin ikinci abzasında "xitam və bərpa" sözləri "bərpa və Azərbaycan Respublikasının vətəndaşlığından çıxma" sözləri ilə əvəz edilsin.

2. 10.2.1.8-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilməklə aşağıdakı məzmunda 10.2.1.9-cu yarımbənd əlavə edilsin:

"10.2.1.9. Azərbaycan Respublikasının vətəndaşlığını itirmiş şəxslər haqqında.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 may 2016-cı il*